

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 13 (23.425)

*23 yanvar 2020-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Polşa Respublikasının Prezidenti Andjey Duda ilə görüşüb.

* * *

Prezident İlham Əliyev həmin gün Davosda Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 22-də Davosda Gürcüstanın Baş Naziri Giorgi Qaxariya ilə görüşü olub.

* * *

Dövlətimizin başçısı İlham Əliyev həmin gün Davosda BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.

* * *

Prezident İlham Əliyev yanvarın 22-də Davosda "SUEZ Group"un yeni baş icraçı direktoru Bertran Kamusla görüşüb.

* * *

Ölkə başçısı İlham Əliyev həmin gün Davos Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirak edib.



## Naxçıvan Muxtar Respublikasında sənayeləşmə siyasətinin yeni mərhələsi: *Şərur Sənaye Məhəlləsi*

*Ümumi daxili məhsulun strukturunda ilk yerə sənaye sahəsinin sahib olması son 11 ildə muxtar respublikanın əldə etdiyi ən böyük nailiyyətdir. Əgər 2008-ci ildə 164 milyon 452 min manatlıq sənaye məhsulu istehsal olunmuşdursa, 2019-cu ildə bu rəqəm 1 milyard 15 milyon manata yaxınlaşmış, emal müəssisələrinin fəaliyyəti genişləndirilmiş, muxtar respublika sənaye regionu kimi tanınmışdır. Sahibkarlığın inkişafı ilə bağlı həyata keçirilən məqsədyönlü tədbirlər, sahibkarlara göstərilən dövlət qayğısı və dəstəyi nəticəsində ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artaraq 88 faizi ötmüş, sənaye sahəsində isə məhsul istehsalının 95 faizi özəl bölmənin payına düşmüşdür.*

Azərbaycan Respublikasının dövlət siyasətinin əsas istiqamətlərindən birini yüksək texnologiyalar əsasında sənayenin dinamik inkişaf etdirilməsi və şaxələndirilməsi təşkil edir. Müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınmaqla, sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal sahələri, sənaye parkları, sənaye məhəllələri yaradılır. Ölkəmizdə sənaye məhəllələrinin yaradılması Azərbaycan Respublikası Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il 8 oktyabr tarixli Fərmanı ilə müəyyən edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli Qərarı ilə Sənaye məhəllələri haqqında nümunəvi əsasnamə təsdiq edilmişdir.

Bu istiqamətdə görülən işlərin davamı olaraq Prezident cənab İlham Əliyev 2019-cu il 13 sentyabr tarixdə Naxçıvan Muxtar Respublikasında Şərur Sənaye Məhəlləsinin yaradılması haqqında Fərman imzalamışdır. Sənaye məhəlləsinin yaradılmasında məqsəd bu sahədə sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafı, sənaye və xidmət sahələrində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli şəraitin təmin edilməsi, əhalinin istehsal və xidmət sahəsində məşğulluğunun artırılmasından ibarətdir.

Sənaye məhəlləsi məhsul istehsalı və xidmətin göstərilməsi üçün sahibkarlar tərəfindən istifadə edilən ərazidir. Bu ərazi sahibkarlığın inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb etməklə, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində zəruri infrastruktura malik olaraq xərclərinin azaldılması və kooperasiya əlaqələrinin gücləndirilməsini təmin edir. Muxtar respublikanın perspektiv inkişafı üçün sənaye sahəsində dövlət siyasətinin əsas məqsədləri sənaye istehsalının dayanıqlı və yüksək artım tempinin təmin edilməsi, strukturunun təkmilləşdirilməsi, modernləşdirilməsi və səmərəliliyinin artırılmasıdır. Bu sahədə əsas tədbirlər istehsal avadanlığının yüksək mənəvi və fiziki aşınmasının aradan qaldırılmasından, məhsulun rəqabətqabiliyyətliliyinin, sənayedə investisiya və innovasiya fəallığının artırılmasından və emal sahəsində fəaliyyət növlərinin stimullaşdırılmasından ibarətdir.

Mülkiyyətinə görə dövlət tərəfindən qurulacaq və idarə olunacaq Şərur Sənaye Məhəlləsinin yaradılması göstərilən hərtərəfli xidmət, stimullaşdırma tədbirlərinin həyata keçirilməsi ilə rəqabətqabiliyyətli, daxili və xarici bazarın tələbatına uyğun məhsul istehsalına, istehsalın perspektiv fəaliyyətinə, istehsal vasitələrindən effektiv istifadəyə və beləliklə, sənayenin kompleks inkişafını tənzimləməyə imkan verəcək. Bu iqtisadi siyasətin reallaşması formalaşan təsərrüfat strukturlarının artması, kiçik sahibkarlığın genişlənməsi və dinamik inkişafı, özəl sektorun rolunun getdikcə artması ilə müşayiət olunacaq. Mövcud dünya standartlarına uyğun olaraq mütərəqqi texnologiyalar əsasında qurulmuş belə müasir müəssisələr yalnız iqtisadi cəhətdən deyil, həm də yeni iş yerlərinin açılması ilə sosial baxımdan da mühüm əhəmiyyət kəsb edir.

Şərur rayonundakı 6 istehsalat korpusundan ibarət olacaq sənaye məhəlləsində ilkin olaraq bitki yağı, ofis ləvazimatları, kağız-torba və corab istehsalı sahələrinin yaradılması nəzərdə tutulub. Bu, həmin məhsulların idxalının azaldılmasında mühüm rol oynamaqla, ixracın və rəqabət qabiliyyətinin artırılması, məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir.



Xarici dövlətlərin təcrübəsindən görünür ki, cəmiyyətin iqtisadi tərəqqisi, əsasən, elmtutumlu texnoloji proseslərin imkanlarının iqtisadi tələbatlarla birləşməsinin nəticəsi olan innovasiyanın əsasında təmin edilir. İnnovasiya prosesinin son məqsədi yeni məhsulun reallaşdırılma qabiliyyətinin yüksəldilməsi və kütləvi istehsalının təşkili olduğundan sənaye məhəlləsində də müasir texnologiyaların tətbiqi yolu ilə yüksək rəqabətqabiliyyətli məhsulların istehsalı və xidmət göstərilməsi istiqamətində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi nəzərdə tutulur.

Sənaye məhəlləsinin yaradılması özəl sektorun inkişafına daha böyük dövlət dəstəyi olmaqla, burada əlverişli infrastrukturun təşkil edilməsi, cəlbedici güzəştlər mexanizmi, müvafiq prosedurların maksimal sadələşdirilməsi, elektron xidmətlərin təqdim edilməsi, idarəedici təşkilat tərəfindən təqdim olunan xidmətlər, layihənin maliyyələşmə imkanları daxili və xarici investisiyaların cəlb edilməsi üçün şərait yaradacaqdır. Sənaye məhəlləsinin ərazisində müasir tələblərə cavab verən infrastruktur, sosial, mədəni, ictimai iaşə, inzibati, mühəndis-kommunikasiya təminatı və onun fəaliyyət göstərməsini təmin edən obyektlər kompleksi yaradılaraq sahibkarların istifadəsinə veriləcək. İnvestisiya cəlbediciliyinin təmin olunması, sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün sənaye məhəlləsinin ərazisində investorlar üçün vergi və gömrük sahəsində bir sıra güzəştlər də nəzərdə tutulur. Baza güzəştlər portfeli kimi, Azərbaycan Respublikası Vergi Məcəlləsinə əsasən sənaye məhəlləsində fəaliyyət göstərəcək rezidentlər yeddi il müddətində mənfəət, torpaq, əmlak vergilərindən və parkda istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsalı məqsədilə idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğular əlavə dəyər vergisindən azad edilir. Bu ərazilərdə fəaliyyət göstərəcək investorlar daim təklif olunan müxtəlif xidmətlərlə təmin olunacaqlar. Bu, vaxt itkisinin qarşısını almaqla keyfiyyətli xidmət göstərilməsinə və sahibkarların maariflendirilməklə öz fəaliyyətlərini elmi əsaslar üzərində qurmalarına yardım edəcək.

Şərur rayonu mükəmməl rabitə və nəqliyyat infrastrukturuna, elektrik enerjisinə giriş imkanlarına və işçi qüvvələri ehtiyatına malik olan ərazi olduğu üçün sənaye məhəlləsinin bu ərazidə yaradılması iqtisadi cəhətdən əlverişli sayılır. Bu məqsəd üçün ayrılan torpaq sahəsində bir neçə şirkətin bir-birinə yaxın ərazidə yerləşdirilməsi, onların ümumi infrastrukturu, kommunal xidmətləri, yanğınsöndürmə, təhlükəsizlik xidmətləri və ərazilərinin ümumi olması istehsal prosesinin zəncirvarı getməsilə maya dəyərinin aşağı düşməsinə səbəb olacaq. Beləliklə də, Şərur Sənaye Məhəlləsi investisiya layihələrinin inkişafını, eləcə də mikro, kiçik və orta sahibkarlıq müəssisələrinin gəlir əldə etməsi imkanlarını asanlaşdırmaqla, muxtar respublika iqtisadiyyatının daha sürətli inkişafını şərtləndirəcək. Eyni zamanda sənayedə işgüzar fəallığın artmasına, sahibkarlığın daha güclü inkişaf etməsinə təkan verəcəkdir.

*Şərur Sənaye Məhəlləsi sürətli texniki-iqtisadi yüksəlişi özündə əks etdirməklə son dərəcə müasirliyi və mütərəqqi texnologiyaları ilə seçiləcək, muxtar respublikanın iqtisadi və sosial məsələlərinin həllinə, bütövlükdə, onun perspektiv inkişafına mühüm təsir göstərəcəkdir. Həyata keçiriləcək düşünülmüş iqtisadi strategiya muxtar respublikamızın özünəməxsus inkişaf yoluna görə daha da fərqlənməsinə səbəb olacaq.*

**Mehriban İMANOVA**
***iqtisad üzrə fəlsəfə doktoru***

## İcbari tibbi sığortanın tətbiqi uğurla həyata keçirilir

*Dünən Culfa rayonunda "İcbari tibbi sığortanın tətbiqi ilə bağlı" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 16 yanvar tarixli Sərəncamından irəli gələn məsələlərin icrasını təmin etmək üçün əhalinin maarifləndirilməsi məqsədilə tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Siyam Hacıyev açıb. O, müvafiq sərəncama əsasən Culfa rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılmasının əhəmiyyəti barədə danışıb, rayonda bu istiqamətdə görülən işləri diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov



çıxışında vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə ötən dövrdə icbari tibbi sığortanın tətbiqi istiqamətində uğurlu nəticələr əldə olunub. Bu sahənin əhatə dairəsi genişləndirilərək Culfa rayonunda da icbari tibbi sığortanın tətbiq edilməsi üçün tapşırıqlar verilib, həmin tapşırıqların icrasını təmin etmək məqsədilə lazımi hazırlıq işləri görülüb. Belə ki, Culfa Rayon Mərkəzi Xəstəxanasında yenidənqurma və təmir-bərpa işləri həyata keçirilib, müvafiq palatalarda mərkəzi oksigen sistemi qurulub, fiber-optik xətlər vasitəsilə internet şəbəkəsi yaradılıb, kompüter və printerlər alınıb, mərkəzi server qurularaq Medisoft "Səhiyyə informasiya idarəetmə sistemi" istifadəyə verilib. Hazırda xəstələrin qeydiyyatı həmin sistem vasitəsilə aparılır. Xəstəxananın Təcili tibbi yardım şöbəsi yenidən təşkil edilib, maddi-texniki bazanı gücləndirmək və göstərilən tibbi xidmətin keyfiyyətini yüksəltmək məqsədilə ən müasir tibbi cihaz və avadanlıqlar alınaraq quraşdırılıb. Həmçinin agentliyin qeydiyyat məntəqəsi yaradılıb.

Qeyd olunub ki, Culfa Rayon Mərkəzi Xəstəxanasında icbari tibbi sığortanın baza zərfinə daxil olan 1525 adda tibbi xidmətdən 638-i icra ediləcək, qalanları isə digər səhiyyə müəssisələri tərəfindən həyata keçiriləcəkdir.

Sonra agentlik əməkdaşlarının çıxışları dinlənilib, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi***



# İqtisadiyyat





## Sahibkarlar yaradılmış şəraitdən razılıq edirlər

*Muxtar respublikamızda sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər davamlı xarakter alıb. Bu isə qədim diyarımızda istehsal sahələrinin genişlənməsinə və iqtisadiyyatın çoxsahəli inkişafına səbəb olub. Ötən il sahibkarlara 24 milyon 546 min manat kredit verilməsi, 72 yeni istehsal və xidmət sahəsinin fəaliyyətə başlaması, 37 hüquqi və 3459 fiziki şəxsin dövlət qeydiyyatına alınması da bunu sübut edir. O da qeyd olunmalıdır ki, bu gün muxtar respublikada 383 növdə məhsul istehsal edilir, 350 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir.*





Sahibkar termini müstəqillik qazandığımız illərdə leksikonumuza daxil olub. Bu barədə düşünəndə sovet dönəminin bəzi "özəlliklərini" xatırlayıram. Bütün istehsal və emal müəssisələri ancaq paytaxtda və ya böyük şəhərlərdə, çox az hissəsi isə iri rayon mərkəzlərində fəaliyyət göstərirdi. Həmin müəssisələrin özünəməxsus qanun-qaydaları o dövrü yaşayanların, yəqin ki, yadlarından çıxmayıb.

Bəs bu gün? Ölkəmizin və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızın ən ucqar dağ və sərhəd kəndində belə, istehsal və ya emal müəssisəsi fəaliyyət göstərir. Həmin müəssisələr daxili bazarda yerli istehsalın çəkisini artırır, məhsul bolluğu yaradır, diyarımızda məşğulluğun genişləndirilməsinə töhfələrini verir. Bu isə bir neçə ailənin maddi rifah halının yaxşılaşdırılması, nəticə etibarilə, insana, onun layiq olduğu səviyyədə yaşamasına qayğı deməkdir.

Mətləbdən uzaq düşməyək. Bu gün muxtar respublikanın hansı bölgəsinə üz tutsaq, orada belə müəssisələrin fəaliyyət göstərdiyini görərik. Elə götürək Kəngərli rayonunu. Bu gün bölgədə 30-a yaxın olmaqla, çörək, qapı, pəncərə, şirniyyat, tərəvəz, kərpic, mebel istehsalı sahələri fəaliyyət göstərir. Rayonda son illərdə balıqçılıq və quşçuluqla da məşğul olmağa başlanılıb.

İstehsal sahələrindən biri "Aydın oğulları" adlanır. Rayon mərkəzi olan Qıvraq qəsəbəsində fəaliyyət göstərən istehsal sahəsinin rəhbəri Rövşən Abdullayevdir. Kollektiv öz işinə məsuliyyətlə yanaşır, istehsal etdiyi məhsulların istehlakçı zövqünə cavab verməsi üçün yaradılmış şəraitdən səmərəli istifadə edir. Sexdə qapı, pəncərə, pəncərə çərçivələri və bölmələri, güzgülər, şəkillər üçün çərçivələr və mebel istehsal olunur. Hələlik fərdi sifarişlə işləyən müəssisədə Türkiyə Respublikasından gətirilmiş avadanlıqlar quraşdırılıb. Həmin avadanlıqlarla müxtəlif ölçülərdə oyma, tikiş, kənarqatlama, qaynaq işləri həyata keçirilir.

Rövşən Abdullayevin dedikləri:

– Bir neçə aydır ki, fəaliyyətə başlamışıq. Daha doğrusu, yeni binaya qədər uyğunlaşdırılmış bir binada işləmişik. Müasir tələblərə cavab verməyən həmin ünvan çox darısqal idi. Sifarişlərin hamısını qəbul edə bilmirdik. Təbii ki, bu da narazılığa səbəb olurdu, öz gücümüzdən yetərincə istifadə imkanlarımızı reallaşdırmaqda çətinlik çəkirdik. Sağ olsun bizə dəstək göstərən dövlətimizi. Torpaq sahəsi verildi, müasir layihə əsasında bina inşa etdirdik. Yavaş-yavaş hər şey yoluna düşməkdədir. Müasir dövrdə alıcı zövqünü oxşamağın çətinlikləri bəllidir. Buna görə də müasir mebelqayırmada tətbiq olunan yenilikləri öyrənir, bunun üçün paytaxt Naxçıvan və Bakı şəhərlərində, qardaş Türkiyə Respublikasında fəaliyyət göstərən istehsal sahələri ilə sıx əlaqə saxlayır, onların təcrübəsindən yararlanmağa səy göstəririk. Məqsədimiz rəqabətədavamlı və ixracyönümlü məhsullar istehsal etməkdir. İndiyədək bizə sifariş verən alıcılar işimizdən razılıq edirlər. Bu da bizi daha yaxşı çalışmağa, yüksəkkeyfiyyətli məhsul istehsalına sövq edir.

Müəssisə rəhbəri ilə birgə sexdəki iş prosesini izləyərkən onu müşahidə etdik ki, burada çalışanlar verilən sifarişləri vaxtında, zövqlə yerinə yetirmək imkanlarına malikdirlər. Bu potensialdan səmərəli istifadə isə sifarişlərin gündən-günə artmasına səbəb olur.

Rövşən belə şəraitin yaradılmasına göstərilən dövlət dəstəyinə görə kollektiv adından bir daha minnətdarlığını bildirdi.

Söhbətimizin əvvəlində rayonda bir sıra sahələr üzrə müəssisələrin olduğunu vurğuladıq. Onlar sırasında Razim Səttarovun rəhbərlik etdiyi çörək və kərpic istehsalı sahələri də var.

Çörək istehsalı sahəsi 2009-cu ildə Yurdçu kəndində fəaliyyətə başlayıb. Burada mətbəx, anbar, sanitar qovşaq tikilib. Bütün sanitar-gigiyena qaydalarına əməl edilən sexdə çalışanlar müvafiq qaydada tibbi müayinədən keçirilir. İşçilər geyim formaları ilə təmin ediliblər. Müəssisədə texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur. Hələlik xammal "Bərəkət" və "Xəyal" un dəyirmanlarından götürülür. Sexdə İran İslam Respublikasından alınan avadanlıqlar quraşdırılıb. Burada 2 növdə çörək istehsal edilir. Sexin istehsal gücü 1 saatda 40 kiloqramdır. İstehsal olunan məhsul müəssisəyə məxsus avtomaşınla satış obyektlərinə göndərilir. Alıcılar məhsulun keyfiyyətindən razılıq edirlər.

Razim Səttarov deyir ki, rayonda geniş həcmdə tikinti-quruculuq işləri həyata keçirilir. Bunu nəzərə alaraq 2015-ci ildə pirket istehsal sexi yaratmışıq. İran İslam Respublikasından gətirilmiş avadanlıqlar imkan verir ki, gün ərzində min ədəd pirket istehsal edək.

Öyrəndik ki, istehsal müəssisəsinin məhsulu üçün sifariş verənlərin sayı get-gedə artır. Kəngərli ilə yanaşı, qonşu rayonlardan da burada hazırlanmış pirket alınır. İşçilər sifarişləri vaxtlı-vaxtında yerinə yetirməyə səy göstərir və buna nail olurlar.

Razim onu da bildirdi ki, artan tələbatı nəzərə alaraq gələcəkdə hər iki istehsal sahəsini genişləndirməyi düşünür. Bunun üçün hər cür imkanlar var.

Kəngərli rayonunda fəaliyyətləri ilə yaxından tanış olduğumuz istehsal sahələrində gəldiyimiz qənaət belə deməyə əsas verir ki, bu gün muxtar respublikamızda sahibkarlıq mühiti özünün yeni inkişaf mərhələsinə qədəm qoyub, diyarımızda güclü sahibkarlıq təbəqəsi formalaşdırılıb. Bütün bunlar isə yeni istehsal sahələrinin yaradılmasına imkan verib. Bu da müxtəlif məhsulların başqa yerlərdən və baha qiymətə diyarımıza gətirilməsinin qarşısını alıb. Bu, muxtar respublikada əmin-amanlığın təmin edilməsinin və bu hesaba güclü iqtisadiyyata nail olmağın bariz nümunəsidir.

Bəhs etdiyimiz istehsal müəssisələrinin kollektivləri də bu həqiqətləri dərindən dərk edir və öz fəaliyyətlərini genişləndirmək əzmi ilə çalışırlar.

## Bu ilin məhsulu üçün 11 min 540 hektar sahədə əkin aparılıb



Kənd təsərrüfatının dinamik inkişaf etdiyi Babək rayonunda taxılçılığa xüsusi maraq göstərilir. Torpaq mülkiyyətçilərinə verilən subsidiylar, gübrələr, texnika və texnoloji avadanlıqlar, əkin sahələrinin suvarma təminatının yaxşılaşdırılması imkan verir ki, taxıl əkini sahələri genişləndirilsin.

Məlumat üçün deyək ki, ötən il 10 min 610 hektar taxıl sahəsindən 33 min 707 ton məhsul götürülüb. Torpaq mülkiyyətçilərinə bu dövrdə dövlət tərəfindən 511 min manatdan çox vəsait, eləcə də 2240 ton 944 kiloqram azot və 29 ton 295 kiloqram fosfor gübrəsi verilib. Qeyd edək ki, 2019-cu ildə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə babəkli sahibkarlara 45 texnika və texnoloji avadanlıq güzəştli şərtlərlə lizinq yolu ilə satılıb. Bütün bunlardan ruhlanan torpaq mülkiyyətçiləri 2019-cu ilin payızında bu ilin məhsulu üçün taxıl əkini sahələrini daha da genişləndiriblər. Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, 11 min 540 hektar sahədə əkin aparılıb və bu, hələlik rekord göstəricidir. 2018-ci ilə nisbətən taxıl əkini sahəsində 930 hektar artım müşahidə olunub.

**Muxtar RZAZADƏ**

## Dövlət maliyyə dəstəyi sahibkarlığın inkişafında mühüm rol oynayır

Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafına, əhalinin işgüzarlıq fəaliyyətinin artırılmasına, müasir istehsal və emal sahələrinin, həmçinin yeni infrastrukturun yaradılmasına dövlət maliyyə dəstəyinin göstərilməsi mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi bu sahədə böyük rol oynayır.

Fond 1 dekabr 2019-cu il tarixədək 1359 layihənin maliyyələşdirilməsinə 149 milyon manatdan çox dövlət maliyyə dəstəyi göstərib. Bu rəqəm ötən il 88 layihə üzrə 6 milyon 991 min manatdan artıq olub.

Sahibkarlığa göstərilən dövlət dəstəyi ilə kənd yaşayış məntəqələrində kiçik müəssisələrin yaradılmasına, kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına, daxili tələbatın yerli istehsal hesabına daha dolğun və etibarlı ödənilməsinə şərait yaranıb. Bununla yanaşı, dövlət dəstəyi əhalinin məşğulluq səviyyəsinin artırılmasına da öz təsirini göstərib. Belə ki, fondun vəsaiti hesabına 2019-cu ilin 11 ayı ərzində yaradılmış 51 istehsal və xidmət sahəsi üzrə 177 yeni iş yeri açılıb, yaradılması davam etdirilən 49 istehsal və xidmət sahəsi üzrə isə 601 yeni iş yerinin açılması nəzərdə tutulur.

Qeyd edək ki, əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də verilmiş kreditlərin təyinatı üzrə istifadəsinə nəzarət etmək məqsədilə sahibkarlıq subyektlərində mütəmadi olaraq monitorinqlər keçirilib, kreditlərin ödəmə müddətləri və iqtisadi səmərəliliyi araşdırılıb, sahibkarlıq subyektləri ilə kreditlərin vaxtında geri qaytarılması istiqamətində maarifləndirmə işləri aparılıb.

**Xəbərlər şöbəsi**

## Keyfiyyətli Ordubad məhsulları, istehlakçı məmnunluğu və ya çörəyi ver çörəkçiyə...

*Sahibkarlıq 30 ilə yaxın bir dövrdə yaşadığımız yeni quruluşun özəl istehsal vasitələrindən biridir. Müstəqilliyimizin ilk illərində bu sahəyə meyil göstərənlərin rastlaşdıqları çətinlikləri xatırlayırsınızmı? Hamının öyrəşdiyi ictimai təsərrüfatlar – sovxoz və kolxozlar, həmçinin fabrik və zavodlar dağıdıldıqdan sonra kimsənin bir neçə nəfəri öz ətrafına yığıb məhsul istehsal etməsinə xülya kimi baxılırdı və o dövr üçün bu, təbii idi. Sistem dağılmışdı, başqa ölkələrlə əlaqələr yox dərəcəsində idi; istehsal üçün istifadə edilən avadanlıqlar istismar müddətini başa vurmuşdu. Belə bir məqamda qurmaq-yaratmaq əzmi ilə yaşayan insanlar ağır dilemma qarşısında idilər...*

Yaşadığım o dövrü elə-belə xatırlamadım. Bu gün ölkəmizdə deyil, elə təkcə muxtar respublikamızın istehsal və emal xəritələrinə nəzər salsaq, böyük inqilabi dəyişiklik olduğunu görərik. Bu məsələnin özünün yüksək həllini tapmasında dövlət qayğısı başlıca amildir. Bu da sahibkarlıq fəaliyyətinin gündən-günə genişlənməsinə, bu sahəyə marağın artmasına stimul olub.

Belə subyektlərin fəaliyyəti Ordubad rayonunda da diqqəti çəkir. Onlardan biri də 2013-cü ildə Vənənd kəndində yaradılan "Ordubad Qənnadı Məmulatları" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Cəmiyyətin sədri Emin Məmmədovdur. Onunla istehsal sahəsində həmsöhbət olduq. Öyrəndik ki, burada cəviz, ərik, gilənar, gilas, heyva, şaftalı, albuxara, armud və tutdan şirələr, cemlər, mürəbbələr, cövhərlər, paxlava, şəkərbura hazırlanır, qablaşdırılır. Müalicəvi bitkilərin qurudulmasının, turşuların hazırlanmasının və paketlənməsinin, həmçinin süd məhsullarının emalının da həyata keçirildiyi müəssisədə, ümumilikdə, 150-dək adda məhsul istehsal edilir. Keyfiyyət amilinə ciddi diqqət yetirilən istehsal sahəsində yaradılmış səliqə-sahman, işçilərin vahid geyim



forması, tələb olunan göstəricilərə tam əməl edilməsi diqqətimizdən yayınmadı.

Sanitar-gigiyenik qaydalara tam riayət olunduğu müəssisədə işçilər ildə iki dəfə tibbi müayinədən keçirilirlər. Burada istehsal olunan məhsulların satışında da heç bir çətinlik yoxdur. Hazırda müəssisənin Naxçıvan və Bakı şəhərlərində mağazaları var. İstehsalın həcmi artdıqca ticarət şəbəkəsinin genişləndirilməsi də qarşıdakı hədəflər sırasındadır.

Xammalın haradan əldə edilməsi sualına cavab olaraq Emin Məmmədov bildirdi ki, kifayət qədər torpaq sahəsi icarəyə götürərək müxtəlif meyvə tingləri əkiblər. Bundan başqa, muxtar respublikanın bütün bölgələrindən istehsal üçün lazım olan meyvələr, digər xammallar alınır.

Doxsan dörd kvadratmetr istehsal sahəsinə malik olan müəssisənin gələcək planları çoxdur. Bunlardan biri də çeşidlər artdıqca istehsal sahəsinin genişləndirilməsidir.

Sahibkarlığa, böyük biznesə gedən yolun ailə təsərrüfatlarından keçməsi təcrübədə özünü göstərib və bu gün belə mütərəqqi təsərrüfat formalarının təşkilinə və qayğı göstərilməsinə muxtar respublikamızda ciddi önəm verilir. Onlara kreditlərin, icarə torpaq sahələrinin verilməsi, təsərrüfatların istehsal etdikləri məhsulların standartlara uyğun qablaşdırılması və ya paketlənməsi, satışının təşkili təmin olunur. Belə qayğılardan bəhrələnən torpaq mülkiyyətçilərindən biri də Vənənd kənd sakini Xaliq Mailovdur. Onun ailə təsərrüfatı müxtəlif meyvələrin – 12 çeşiddə mürəbbə, qızılgül, həmərsin və ərikdən şirələr, cəvizdən bir neçə növdə sucuq və alana, həmçinin ərik, sarı gavalı və ərik qurusu hazırlanması ilə məşğul olur. Dörd ildir ki, yaradılmış təsərrüfat göstərilən dövlət qayğısını daim öz üzərində hiss edir, hazırladıqları məhsulların keyfiyyətinə ciddi önəm verir. Ötən il Naxçıvan şəhərində keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalına qatılan təsərrüfatın məhsulları yüksək dəyərləndirilib, mükafatlandırılıb.

**P.S.** *Müəssisədən Naxçıvana qayıdıb yolumuzu "Ordubad Qənnadı Məmulatları" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi məhsulların şəhərimizdə satışını həyata keçirən mağazaya saldıq. Səliqə-sahmanı, ticarət normalarına cavab verməsi ilə diqqəti ilk baxışdan çəkən mağazada alıcı Bəhlul Abbasovla hömsöhbət olduq. O bildirdi ki, bir neçə ildir, bu mağazadan dadlıtamlı Ordubad məhsulları alır. Dedi ki, valideynləri Bakıda yaşayırlar. Bakıya gedərkən onlar üçün də hədiyyəlik məhsullar alıb aparır. Bu məhsullara paytaxt şəhərimizdə də böyük tələbat var. Çünki keyfiyyətlidir, ekoloji sağlam xammaldan hazırlandığı üçün tibbi cəhətdən də faydalıdır.*

*Vənənd kəndində gördüklərimizdən gəldiyimiz qənaət bir atalar sözünü yadımıza saldı: Çörəyi ver çörəkçiyə...*

**Muxtar MƏMMƏDOV**

## Görkəmli rəssamın xatirəsi ehtiramla yad edilib

*Dünən Bəhruz Kəngərli Muzeyində tanınmış realist rəssamın anadan olmasının 128-ci ildönümü münasibətilə "Görkəmli rəssamın sənət dünyası" mövzusunda interaktiv dərs keçilib. Muzeyin bələdçisi Rəna Əliyeva tərəfindən aparılan dərsdə 1892-ci il yanvarın 22-də Naxçıvanda dövrünün qabaqcıl ziyalılarından sayılan Şirəli bəy Kəngərlinin ailəsində dünyaya göz açan görkəmli rəssamın həyat və yaradıcılığından söhbət açılıb. Hələ körpəlikdə anasını itirən, 9 yaşından isə səhhətində problem yaranan gənc rəssamın yaradıcılığı ilə adını Azərbaycanın sənət tarixinə yaza bilməsi vurğulanıb.*

Bildirilib ki, məşhur Kəngərlilər nəslinin nümayəndəsi, Azərbaycan milli rəssamlıq sənətinin tanınmış simalarından olan Bəhruz Kəngərlinin anadan olmasından 128 il keçir. 30 il ömür sürən Bəhruz Kəngərli cəmi yeddi il yaradıcılıq fəaliyyəti ilə məşğul olsa da, zəngin irs qoyub, 2 minə qədər rəsm əsəri yaradıb. O, realist portret və mənzərə rəsm yaradıcılığının, eləcə də Azərbaycan boyakarlığında realizmin əsasını qoymaqla milli sənət xəzinəsinə dəyərli nümunələr bəxş edib, onu yeni ictimai məzmun və janr, təsvir metodu və ifadə vasitələri ilə zənginləşdirib.





Vurğulanıb ki, görkəmli sənətkarın sənət dünyasına, əbədiyaşar yaradıcılığına onun doğulub boya-başa çatdığı doğma diyarında daim yüksək diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli rəssam Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı ilə 2012-ci ildə görkəmli sənətkarın yubileyi geniş şəkildə qeyd olunub. Azərbaycan Milli İncəsənət Muzeyinin fondunda saxlanılan bir çox əsərlərinin surəti çıxarılaraq Bəhruz Kəngərli Muzeyinə təqdim edilib. Rəssamın əsərlərinin tam külliyyatı ilk dəfə olaraq albom-kataloq şəklində nəşr olunub. Eyni zamanda muxtar respublikada yubiley münasibətilə poçt markası buraxılıb. Naxçıvan televiziyası tərəfindən görkəmli rəssamın həyat və fəaliyyətinə həsr olunmuş sənədli film hazırlanıb.

Qeyd olunub ki, Bəhruz Kəngərli Muzeyinin yerləşdiyi bina 2013-cü ildə yenidən qurularaq istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 noyabr tarixli Sərəncamı ilə Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkı yaradılıb və rəssamın heykəli qoyulub.

Diqqətə çatdırılıb ki, dövrünün reallıqlarını əsərlərində böyük şövqlə təsvir edən Bəhruz Kəngərli xalqımız qarşısında mühüm xidmətlər göstərib. O, tarixi keçmişimizi və dövrün ictimai-siyasi hadisələrini yaradıcılığında dolğun əks etdirən bir sənətkar kimi yüksək qiymətə layiqdir. Son illər tanınmış rəssamın Azərbaycan mədəniyyəti xəzinəsinə daxil olan zəngin sənət irsinin xalqımızın milli sərvəti kimi qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində mühüm işlər görülür.

Bildirilib ki, milli rəssamlıq, boyakarlıq sənətinin zirvəsində dayanan əvəzsiz sənətkar Bəhruz Kəngərli 1922-ci il fevralın 7-də Naxçıvanda dünyasını dəyişib.

Vurğulanıb ki, Azərbaycan incəsənətinin tarixində özünəməxsus xidmətləri ilə yaşayan Bəhruz Kəngərli kimi sənətkarlar bəşəri ideyalı insanlar olublar. Cəmi 30 illik ömründə əbədiyaşar əsərlərə həyat verən, incəsənət tariximizin unudulmayan nümayəndəsinə çevrilən Bəhruz Kəngərli həmişə müasirimiz olaraq gələcəyə bizimlə bərabər addımlayır.

İnteraktiv dərs muxtar respublikanın 200-dən çox ümumtəhsil müəssisəsində izlənilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

* * *

Yanvarın 22-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri və gənc rəssamlar Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərlinin anadan olmasının 128-ci ildönümü münasibətilə onun adını daşıyan Rəssamlar Parkına yürüş təşkil edib, sənətkarın burada ucaldılan abidəsi önünə gül dəstəsi qoyub, xatirəsini ehtiramla yad ediblər.



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək Bəhruz Kəngərlinin zəngin yaradıcılığı haqqında danışıb, görkəmli rəssamın Azərbaycan incəsənətinin tarixində özünəməxsus xidmətləri olduğunu bildirib.

Çıxışda görkəmli rəssam Bəhruz Kəngərlinin adının muxtar respublikamızda əbədiləşdirilməsi, yaradıcılığının tədqiqi və təbliği sahəsində görülən işlərdən bəhs olunub.

Vurğulanıb ki, görkəmli sənətkarın xatirəsi bundan sonra da ehtiramla yad ediləcək və Bəhruz Kəngərli Azərbaycan rəssamlığına göstərdiyi xidmətləri ilə daim sənətsevərlərin qəlbində yaşayacaq.

Sonra Bəhruz Kəngərli Muzeyinin direktoru Səbinə Əlincəli çıxış edərək bildirib ki, istedadlı fırça ustası, milli rəsm sənətinin tanınmış simalarından olan Bəhruz Kəngərli Azərbaycan rəssamlığında orta əsr miniatür sənətindən realizmə keçidin, bununla da yeni boyakarlıq məktəbinin əsasını qoyub.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

*2020-ci il "Könüllülər ili"dir*

## Könüllülük inkişafdan xəbər verir

### *Yetər ki, istək olsun...*

*Könüllülük müəyyən səbəbdən başqalarının xeyri üçün ödəniş, təmənna ummadan öz köməyini göstərməkdir. Könüllülük öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən mənəvi fəaliyyət növüdür. Əsasən, cəmiyyətin maraqlarına xidmət edən bu fəaliyyət insani keyfiyyətlərin önə çıxmasına, vətənpərvər, vicdanlı bir gəncin maddiyyat düşünmədən mənəvi sevgi qazanmasına şərait yaradır.*



İnsan yaranandan könüllü əməyə ehtiyac olubdur. Qədim köklərə dayanan bu günün tarixinə nəzər salaq. Beynəlxalq Könüllülər Günü iqtisadi və sosial inkişafın istiqaməti kimi meydana gəlib. İlk dəfə 1985-ci ildə BMT-nin Baş Məclisi tərəfindən Beynəlxalq Könüllülər Gününün qeyd edilməsi müzakirə olunub, bu günün 5 dekabr tarixdə keçirilməsi qərara alınıb.

Ölkəmizdə 2020-ci ilin "Könüllülər ili" elan edilməsi muxtar respublikamızda da bu sahədə müxtəlif fəaliyyət istiqamətlərinə və inkişafa marağı artırıb.

Tarixən hər bir ölkə xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənclərə bağlayır. Bir millətin mövcudluğu üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual gənclərin yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bir ölkənin gənc təbəqəsinin dünyagörüşlü, intellektual formalaşmasında onun asudə vaxtını necə keçirməsi də böyük əhəmiyyət daşıyır. Lakin, təəssüf ki, gəncliyin böyük əksəriyyəti asudə vaxtlarını səmərəli keçirmir. Bu isə onu təsdiq edir ki, gənclərimizin bəzilərinin bu mövzuda anlayışı olduqca zəifdir və yaxud da yoxdur. Elə buna görə də onlar zamanlarını düzgün dəyərləndirə bilmir, dəyərli vaxtlarını oyun zallarında, internet klublarda keçirirlər. Qlobal problemə çevrilmiş bu hallar gələcəkdə də həmin gənclər üçün faciəyə səbəb ola bilər. Eyni zamanda bəzi gənclər şöhrətə meyilli, maddiyyat düşkünü formasında yetişməkdədir. Çox az təsadüf olunsa da, belə acınacaqlı hallar cəmiyyətdən gizlədilə bilməz. Məhz, bu məqamda, 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan edilməsi ilə bağlı imzalanan Sərəncam gənclərimizi düzgün istiqamətləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Könüllülüyü bir deyil, istənilən sahədə görmək olar. Yetər ki, istək olsun. Könüllülük fəaliyyəti altrusitik fəaliyyət sayılır və insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına, onların zəngin mənəvi həyat tərzi sürməsinə yönəldilib. Könüllülük dedikdə ilk ağıla gələn ehtiyacı olanlara kömək etməkdir. Bu köməyin əsas predmetləri sağlamlıq imkanları məhdudlara, əhalinin aztəminatlı təbəqələrinə, qocalara, qaçqın və məcburi köçkünlərə göstərilən maddi və mənəvi dəstək ola bilər.

Təkcə bu sahələr deyil, mədəni tarixi sərvətlərin qorunmasında, ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın saxlanmasında da bir çox könüllü əməyindən istifadə oluna bilər. Hələ ötən il könüllü gənclərdən təşkil olunan bir qrup muxtar respublikada fəaliyyət göstərən ahıllar evində, körpələr evində olub, köməyə ehtiyacı olanlara yardım edib, ağaclarda quşlara yuva düzəldib, ekoloji tarazlığı qorumaq üçün kütləvi şəkildə iməciliklərdə iştirak etməklə yaşıllıq sahələrinin artırılması kimi bir çox tədbirlər həyata keçirib, startap layihələri ilə çıxış edib. İstər mədəni sahədə, istərsə də idman yarışlarında iştirak edən könüllü həmyerlilərimizin qələbələri, zəfərləri bu gün bizi gözəl gələcəyə, daha inamlı sabahlara həvəsləndirir.

*Ölkənin inkişaf etmiş gənclərə ehtiyacı var. Çünki hər yeniliyin, hər intibahın arxasında potensiallı gənclər dayanır. Bir ölkənin gələcək uğuru, nailiyyətləri, müvəffəqiyyətləri onu irəli aparan gəncliyindən asılıdır. 2020-ci ilin "Könüllülər ili" elan edilməsi gənclərin fəaliyyət istiqamətlərinin düzgün müəyyənləşdirilməsinə, onların layiqli vətəndaş kimi yetişməsinə öz bəhrəsini verəcək.*

**Türkan HÜSEYNLİ**

## Əlfəcin – mütaliə naminə nişanələyək

*Ona uşaq vaxtı çox ehtiyac duymuşdum – 80-ci illərdən bəhs edirəm. Yəqin ki, digərləri də bu ehtiyacı hiss edib. Amma nə iləsə əvəz etmək ağlımıza da gəlmirdi. Heç çıxış yolu deyən də yox idi. Hamının bildiyi yalnız bir yol var idi: oxuduğun yeri unutmamaq üçün həmin səhifəni qatlamaq. Belədə isə vərəqlər əzilir, korlanır, iz düşür, bir sözlə, nəşrə xələl gəlirdi.*

Doğrusu bu, bir az da oxuduğumuz kitab-jurnallara heyfimizdən irəli gəlirdi. Nə də olsa, bunlar bizim məlumat ala biləcəyimiz azsaylı mənbələr idi. Ancaq digər tərəfdən, bu metod bəzən işimizə də "yarayırdı". Məsələn, bəzən maraqlı bir kitabı mütaliə üçün götürən dostlarımızdan onu sənə qaytaran zaman necə "oxuduğunu" o dəqiqə bilmək olurdu. Çünki oxumağı, müəyyən yenilikləri öyrənməyi özü üçün əziyyət hesab edənlər heç səhifələri də korlamırdılar. Ancaq heç bir halda oxumaq həvəsi və oxuduqlarından aldığın mütaliə ləzzəti səni tərk etmirdi. Çünki o zamanlar cəmiyyətin ehtiyacı indiki kimi çox deyildi. Bir tərəfində gündüz, digər tərəfində isə gecə olan dünyada baş verən milyonlarla hadisəni, məlumatı, yalanı, doğrunu indiki kimi bir ovuca sığdırmaq mümkünsüz idi. Heç indiki kimi hər kəsin şəxsi poçt qutusu da yox idi. Hamının bir poçtu var idi. Kənd yerlərində, demək olar ki, hər kəs günün bəlli saatlarında həmin poçta gələr, növbə ilə abunə yazıldığı qəzet-jurnallardan alardı. Şəhər yerlərində isə bu işi poçtalyonlar görərdi. Məhz elə həmin zaman kənd mərkəzlərindəki mənzərəyə baxsaydın, ikibir, üçbir – nə qədər insanın qəzet-jurnal oxuduğunun şahidi olardın. Yaşlılar və ya oxuya bilməyənlər isə digərlərini maraqla dinləməyə çalışardılar. Ən azından mövzunun ümumi məğzindən xəbər tutardılar. Mənim də oraya yolum tez-tez düşərdi. Alacaqlarımı əldə etdikdən sonra bu zamanı bir az da uzatmağa çalışardım. Əvvəlcə aldığım aylıq jurnalların səhifələrini



tez-tez vərəqləyib başlıqlarına baxar, (çünki bir səhifədə geciksəydim orada yazılanları dayana bilməyib oxuya bilərdim ki, bu da ondan alacağım ləzzətin tez bitməsinə səbəb olardı) sonra evə tələsərdim. Qarşıma bir pürrəngi çay qoyduqdan sonra (bunun ləzzəti başqa olur axı) tələsmədən, yavaş-yavaş oxumağa başlayardım. Bəlkə də, prinsip etibarilə bunları bir gün içərisində də oxuyub qurtarmaq mümkün idi. Ancaq dediyim kimi, mən bu vaxtı uzadırdım, həm də ona görə ki, növbəti belə məlumatlar üçün tam bir ay gözləməli olacaqdım. Bunun üçün də oxuduğum jurnallarda müəyyən fasilə vermək üçün həmin səhifələri işarələməli idim. Bunun da optimal yolu, az əvvəl də dediyim kimi, səhifəni qatlamaq idi. Kitab oxumaqdan söhbət düşmüşkən, elə həmin dövrdə kitab çeşidləri indiki qədər də çox deyildi və ya bizə gəlib çatmırdı. Çünki çapdan çıxan hər bir kitab hakim ideologiyanın dəstxətinə uyğun olmalı, ən yaxşı halda neytrallıq gözlənilməli idi. Bu baxımdan kitab seçimində çox çətinliklər olurdu. Məsələn, 13 yaşım olanda üz qabığından çox xoşum gəldiyi və rus dilindən tərcüməsi "Partiya fəallarının kitabı" kimi səslənən kitabı alıb oxusam da, bu mənim yaşıma uyğun deyildi və sadəcə, vaxt itkisi idi. Çünki SSRİ Mərkəzi Komitəsində çalışan yüksək vəzifə sahiblərinin tərcümeyi-hallarından bəhs edən həmin məlumatlar həyatda heç vaxt mənə lazım olmayacaqdı.

Ancaq indi zaman tamamilə dəyişib. İstədiyin ədəbiyyatı ala və ya sifariş edə bilərsən. Həm də sənə lazım olan dildə. İstədiyin kitabı mövzusuna uyğun seçə bilərsən, həm də sənə həyat yollarında düzgün addımlamağı öyrədənləri. Yox, əgər kitab seçməyə çətinlik çəkirsənsə, o zaman oxunması zəruri olan kitablara – Naxçıvanda hər kəs bu haqda məlumatlıdır – heç düşünmədən müraciət edə bilərsən. Əgər vaxtın yoxdursa... Yox, buna mütləq vaxt tapmalısan!.. Çünki bunları oxumaq, həqiqətən, zəruridir. Hə, bir də yadımdan çıxmışdı... Oxuyub fasilə verərkən indi səhifələri qatlamağa, əzməyə də ehtiyac yoxdur. Sadəcə, arasına bir əlfəcin qoyursan...

***P.S.*** *Əlfəcin kitabın səhifələri arasına nişan üçün qoyulan lentşəkilli kağız parçasına deyilir. Qədim ərəb mənşəli söz olub, böyümək, artmaq, yenidən müraciət etmək, əlamət qoymaq, nişanlamaq mənasını verir.*

**✍ Səbuhi HƏSƏNOV**

*Yurdumuzun qonaqları*

## Naxçıvan mənə ana vətənim Pakistan qədər doğmadır

*İlin bütün fəsillərində muxtar respublikamıza turist axınının şahidi oluruq. 2019-cu ildə qədim diyarımıza ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən 416 minə yaxın turist gəlib. Həmçinin Böyük Britaniyada nəşr olunan dünyanın ən məşhur səyahət jurnalı “Vanderlast” Naxçıvan şəhərini səyahət edilən 50 ən təhlükəsiz və gözəl şəhərlər sırasına daxil edib. Bu statistik məlumatlar bir daha göstərir ki, Naxçıvan turistlərin ən çox müraciət etdiyi şəhərlər sırasında öz yerini qoruyub saxlayır. Keçən günlərdə Pakistan Respublikasından diyarımıza səyahətə gələn turistlər də Naxçıvanın qış fəslində gəzib-görməli yerlərində oldular.*



Şəhərimizdə Pakistan vətəndaşı İmran Muhammedlə həmsöhbət olduq. O, qeyd etdi ki, hazırda ailəsi ilə birgə Bakı şəhərində yaşayır və orada ticarətlə məşğul olur: – Biz bir neçə ildir, Bakıya gəlmişik. Azərbaycan mənim ikinci Vətənimdir. Pakistan və Azərbaycan arasındakı yaxın və səmimi dostluq əlaqələri uzaq keçmişə dayanır. Xatırladım ki, Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk üç dövlət sırasındadır. Hər iki dövlətin insanlarının bir-birinə qarşılıqlı hörmət və ehtiramı var. Azərbaycanın tanınmış diyarı olan Naxçıvana isə ilk dəfədir, gəlirəm. Bura çox xoşuma gəldi. Mən əvvəldən də məlumatlıyam ki, Pakistanla Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında qarşılıqlı dostluq əlaqələri vardır. Buranın ali təhsil müəssisələrində Pakistandan olan tələbələr təhsil alır, universitetlərarası sıx əlaqələr mövcuddur. Həmçinin görkəmli Azərbaycan yazıçısı, əslən Naxçıvandan olan Cəlil Məmmədquluzadə haqqında kitablar Pakistanda urdu dilində nəşr olunub.

Qeyd edim ki, mən buraya dörd pakistanlı dostumla gəlmişəm. Naxçıvan haqqında çox eşitmişik, ancaq əyani görüb tanımaq isə bizim üçün çox xoş oldu. Dördgünlük səfərimiz müddətində muxtar diyarın görməli yerləri, tarixi abidələri, mədəniyyət müəssisələri ilə tanış olduq. Bura maraqlı bir məkandır. Hər addımda muxtar respublikanın inkişafını gördüm. İnsanların simasında daim təbəssüm var. Bu o deməkdir ki, onların yaşayışları yaxşıdır. Allah bu torpağa bütün nemətlərdən nəsib edib. Blokada vəziyyətində olan bir diyarda belə bir inkişaf insanı heyrətləndirir. Bu onu göstərir ki, Naxçıvanın inkişafı üçün çox böyük tədbirlər həyata keçirilir. Burada geniş və abad yollarda gəzmək də çox rahatdır. Səmimi deyim ki, mən Naxçıvan torpağını, insanlarını çox sevdim. Sakinlər qonaqpərvər və əliaçıqdırlar. Şəhərdə mərkəzi bazara getdik. Bazardan aldıqlarım müqabilində məndən pul götürmədilər. Dedilər ki, Pakistan Azərbaycanla qardaş ölkədir, qonaq olun. Çox xoşuma gəldi. Biri var dillə dua etmək, biri var qəlblə. Göstərdikləri hörmətə görə mən onlara qəlbdən dua etdim. Bunu hər yerdə deyəcəyəm ki, Azərbaycanın hər yeri gözəldir, lakin Naxçıvan xüsusilə seçilir.

Onu da deyim ki, səfərimiz çərçivəsində biz bir sıra görməli yerlərlə tanış olduq. Düşünürəm ki, Naxçıvana gəlib çoxdan haqqında eşitdiyimiz Əshabi-Kəhfi ziyarət etməsəydik olmazdı. Bura ziyarətgah olmaqla yanaşı, həm də Azərbaycanın ən qədim tarixi yerlərindən biridir. Təsadüfi deyil ki, İslamın müqəddəs kitabı “Qu-



rani-Kərim”də də bu qədim ziyarətgahın adı çəkilir. Öyrəndim ki, dünyadakı müxtəlif dinlərə mənsub olan insanlar bura ziyarətə gələ bilirlər. Ziyarətgah həm də insanlara xeyirxah əməllər aşılayır. Biz “Damcıxana”ya qalxdıq, üzərimizə su damcısı düşdü. Bizimlə bərabər, damcının üzərinə düşməsini gözləyən çoxlu insanlar var idi. Möcüzəli bir aurası olan bu yer mənimlə birgə gələn dostlarımın da xoşuna gəldi. Bizim ölkəmizdə olduğu kimi, Naxçıvanda da dini-mənəvi dəyərlərin qorunub saxlanıldığının şahidi olduq.

Daha sonra Duzdağa getdik. Çox gözəl və möcüzəvi yerdir. Buradakı qədim duz mağaraları insanlara sağlamlıq, şəfa bəxş edir. Bu da Uca Yaradanın Naxçıvana ən böyük lütfüdür.

Muxtar respublika ərazisində gəzdiyimiz tarixi abidələrdən biri də Qarabağlar Türbə Kompleksi oldu. Öyrəndik ki, bu türbə Naxçıvanın ən qədim mədəniyyət abidələrindən biridir. Türbə böyük mədəniyyət mərkəzlərindən biri olan Qarabağlar kəndi ərazisində 800 il bundan öncə yaradılıb. Türk-islam mədəniyyətinin izlərini qoruyub saxlayan abidənin bərpa edilməsi isə bu diyarda tarixi-mədəni irsə göstərilən ən böyük diqqətdir. Mən türbə haqqında məlumatlandıqdan sonra orada namaz qılıb, dua etdim.

Görünür ki, bu diyarın əlverişli təbii-coğrafi şəraiti turizmin inkişafına da imkan verib. Şahbuz rayonu ərazisində yerləşən Batabat, Ağbulaq kimi turistik yerlər buna misal ola bilər. Ağbulaq qış turizmi üçün ideal yerlərdən biridir. Biz Ağbulaq Xizək Mərkəzində də olduq. Burada yaradılan şərait dağ-xizək və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açır. Asudə vaxtımızı dəyərləndirmək üçün mərkəz təlimçilərinin müşayiəti ilə xizək sürdük və motosikletlə səyahət etdik. Bu anlar bizim üçün maraqlı və həyəcanlı idi.

Biz Gülüstan və Nuh Peyğəmbərin türbələrini, Möminə xatın məqbərəsini, Xan sarayını, Naxçıvanqalanı, Əlincə qalasını, Darıdağı da gəzdik. Bu yerlərin hər biri məndə yüksək təəssürat yaratdı.

Ticarətlə məşğul olduğum üçün “Cahan” Ticarət Mərkəzi ilə maraqlandım. Naxçıvanda iqtisadiyyatın inkişafı, xarici ticarət əlaqələri, istehsal edilən yerli məhsullar barədə məlumat əldə etdim. Mən çox istərdim ki, gələcəkdə Naxçıvan və Pakistan arasındakı ticarət əlaqələri genişlənsin, bu diyarda bizim də istehsal etdiyimiz yerli mallar tanınsın.

***Bu gün Naxçıvana gələn hər bir turistin dilindən qədim diyarımız haqqında ağızdolusu gözəl sözlər eşidirik və bu məni çox sevindirir, həm də qürurlandırır. Ona görə ki, mən müstəqil Azərbaycanın Naxçıvan adlı dilbər guşəsinin övladıyam və qanımla, canımla, bütün varlığımla öz elimə bağlıyam!***

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

***Naxçıvan Futbol Federasiyasında ötən ilin yekunları və qarşıda duran vəzifələrə bağlı yığıncaq keçirilib.***

## İdman federasiyalarının yığıncaqları keçirilib



Tədbiri giriş sözü ilə federasiyanın sədri Azad Cabbarov açıb.

Naxçıvan Futbol Federasiyasının sədr müavini Sakit Rzayev çıxış edərək bildirib ki, iyul ayındakı struktur dəyişikliyindən sonra federasiyada muxtar respublikada futbolun yüksəlişinə xidmət edəcək 5 illik plan və strategiyanın təsdiqi ilə yeni bir mərhələnin əsası qoyulub. Azyaşlılar arasında liqaların təşkil olunması, həvəsləndirici və maarifləndirici layihələrin hazırlanması, məşqçilərin təkmilləşmə kurslarına cəlb olunması və digər zəruri addımların atılması hədəfi uşaq futbolunun yaxın 5 ildəki inkişaf perspektivini müəyyən etdi. Proqrama uyğun olaraq bu müddət ərzində alt yaş qruplarında yetişən istedadlı futbolçular əsas komandaya cəlb olunacaqlar. Uşaq futbolu ilə yanaşı, ümumi inkişafa xidmət edəcək məsələlər də proqramda öz əksini tapır.

Naxçıvan Futbol Federasiyasının böyük məşqçisi, “Araz-Naxçıvan” peşəkar futbol klubunun baş məşqçisi Əsgər Abdullayev çıxışında diqqətə çatdırıb ki, ötən il “Araz-Naxçıvan”ın heyətində bir sıra dəyişikliklər edilib. Seleksiya məqsədilə keçirilən məşqlərdə 35-ə yaxın futbolçu iştirak edib. Bu müddət ərzində “Araz-Naxçıvan” 9 oyun keçirib və bunların hamısında meydanı qələbə ilə tərk edib. Naxçıvan Muxtar Respublika çempionatında qış fasiləsinin olmasına baxmayaraq, komanda məşqlərini davam etdirir. Aparılacaq məşqlərdən sonra komanda Türkiyədə 2 yoldaşlıq görüşü keçirməyi planlaşdırır. Eyni zamanda Naxçıvan Muxtar Respublika Stadionunda 2000-2005-ci illər təvəllüdlü futbolçuların seleksiya məşqləri aparılıb.

Əsgər Abdullayev qeyd edib ki, hesabat dövrü ərzində Şərur, Kəngərli və Culfa rayonlarında keçirilən məşqlərdə iştirak edilib, məşqçilərlə söhbətlər aparılıb və onlara düzgün məşq keçmələri üçün AFFA-nın aşağı yaş qrupları üçün tərtib etdiyi elit-məşq kitabları təqdim edilib. Geridə qoyduğumuz müddət ərzində veteran futbolçularla görüşlər keçirilib.

Digər çıxışlardan sonra federasiya sədri Azad Cabbarov diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası XVII və XVIII Futbol çempionatlarının dövrə oyunları oynanılıb, muxtar respublikada fəaliyyət göstərən dövlət və özəl təşkilatlar arasında ilk dəfə futzal liqası və 2019-2020-ci il futzal mövsümündə “Badamlı Naxçıvan Kuboku” uğrunda yarışa start verilib. Orta məktəblərdə çalışan bədən tərbiyəsi müəllimlərinin futbol biliklərinin artırılması məqsədilə “D” kateqoriyalı məşqçi kursu, gənclərdən ibarət kənd komandaları arasında futbol üzrə şəhər və rayon birinciliklari, futbol hakimləri üçün seminarlar, Şərur Olimpiya İdman Kompleksində 13-14 yaşlı futbolçulardan ibarət Naxçıvan yığmasının təlim-məşq toplanışı keçirilib.

Qeyd olunub ki, 13-14 yaşlı futbolçular arasında “Nakhchivan CUP-95” beynəlxalq turnirində “Araz-Naxçıvan” futbol klubunun iştirakı təmin edilib, Bakı şəhərindən dəvət olunmuş təcrübəli hakimlər tərəfindən muxtar respublika hakimləri üçün kurs keçirilib. Görülən işlərin nəticəsidir ki, artıq federasiyada hakimlərin sayı 30-a çatdırılıb.

Azad Cabbarov dövlət idman siyasəti çərçivəsində qarşıya qoyulmuş tələb və tapşırıqları 2020-ci ildə də uğurla icra etməyə çalışacaqlarını diqqətə çatdırıb, yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Sonra məşqçilərin fikir və təklifləri dinlənilib.

Yığıncaqda Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının referi statusunu alanlara nişanlar təqdim olunub.

* * *



Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasında keçirilən yığıncağı giriş sözü ilə açan federasiyanın sədr müavini Aydın Mirzəyev bildirib ki, Voleybol Federasiyası tərəfindən muxtar respublika üzrə 2019-cu il ərzində 1 çempionat, 1 turnir, 3 muxtar respublika, 8 rayon birinciliyi, 20 yoldaşlıq görüşü, ümumilikdə, 33 idman tədbiri keçirilib. Eyni zamanda federasiyanın 2000-ci il təvəllüdlü voleybolçularından Uğur Qədimov və Mirhasil Seyidov Azərbaycanın yeniyetmələrdən ibarət voleybol üzrə yığma komandasına dəvət alıblar. Hazırda təlim-məşq toplanışlarına qatılır və Avropada keçirilən yarışlarda Azərbaycanı təmsil edirlər.

Çıxışın sonunda dövlət idman siyasəti çərçivəsində qarşıya qoyulan tələb və tapşırıqların bundan sonra da layiqincə yerinə yetiriləcəyinə əminlik bildirilib.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman nazirinin müavini Məcid Seyidov çıxışında qeyd edib ki, Voleybol Federasiyası 2019-cu ildə öz işini verilmiş tapşırıqlara əsasən qurub. Muxtar respublikamızda 4537 idmançı 314 qrupda bu idman növü ilə məşğuldur. Çıxışda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Voleybol Federasiyası ilə birgə idmanın bu növünü inkişaf etdirmək və kütləviliyinin təmin edilməsi məqsədilə həyata keçirdiyi çoxsaylı tədbirlər barədə məlumat verilib.

Sonra məşqçilərin fikir və təklifləri dinlənilib.

✍ **Ceyhun MƏMMƏDOV**

## Toplantılar keçirilir



Növbəti tədris ilinə hazırlıq planına uyğun olaraq Naxçıvan Qarnizonu qoşunlarında müxtəlif ixtisaslar üzrə toplantılar keçirilir.

Ötən müddət ərzində keçirilən toplantılarda taqım komandirləri və müavinləri, manqa komandirləri, müxtəlifixtisaslı gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçular iştirak ediblər. Toplantılarda kiçik komandir heyətinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, pedaqoji hazırlıqlarının yüksəldilməsi istiqamətində nümayiş və göstərici məşğələlər keçirilib, “Hərbi qulluqçu və hərbi kollektivin psixologiyası” mövzusunda mühazirələr oxunub.

Hazırda digər ixtisaslı hərbi qulluqçuların cəlb edildiyi komandir hazırlığı və təlim-metodik toplantılar davam edir.

**Nəriman NƏCƏFOV**

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyi işaxtaranları Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçı peşəsi üzrə kurs keçməyə dəvət edir. Kursun tədris müddəti 3 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 1 fevral 2020-ci il tarixədək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim etməlidirlər:

*1.Yaşayış yerindən arayış*
*2.Şəxsiyyət vəsiqəsinin surəti*
*3.Tibbi arayış*

**Əlaqə telefonu: 545-32-33**

***İtmişdir***

Naxçıvan şəhəri, Bulqan kənd sakini Həsənov Afik Mənaf oğlunun adına olan 18468 inventar nömrəli texniki pasport və MH-0058397 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Nəbiyev Rəcəb Nəbi oğlunun adına olan 0200224352 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 66